**Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın**

**4 saylı protokolu**

**Daşkəsən şəhəri** **19 dekabr 2023-cü il**

**İştirak edirdilər:**

İctimai şuranın üzvləri:

1. Həsənov Samir Fidail oğlu (İctimai Şuranın sədri);
2. Əliyev Emin Etibar oğlu (İctimai Şuranın sədr müavini);
3. Zeynalova Aygül Azad qızı (İctimai Şuranın katibi);
4. Cəfərova Gülnar Abbasqulu qızı;
5. Xəlilov Vüqar Müslüm oğlu.

Dəvət olunanlar: "Qızıl Aypara" Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri Vasif Hüseynov; Daşkəsən rayon Mədəniyyət işçiləri müstəqil həmkarlar təşkilatının sədri Mətanət Abdullayeva; Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Daşkəsən rayon filialının sədri Bakir Qurbanov; Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Daşkəsən rayon şöbəsinin sədri Seymur Tağıyev.

**İclasın sədri: S. Həsənov**
**İclasın katibi: A. Zeynalova**

**Gündəlik üzrə məsələ:**

Daşkəsən rayonunda abadlıq-quruculuq, ekoloji maarifləndirmə və sosial-infrastruktur layihələrinin icrası ilə əlaqədar görülən işlər barədə sakinlərin müntəzəm olaraq məlumatlandırılması.

Gündəlik səsə qoyuldu və yekdilliklə qəbul olundu.

**Eşidildi:**

İclasa sədrlik edən İctimai Şuranın sədr Samir Həsənov iclası açıqdan sona katibdən kompüter arxasına keçərək protokol üçün qeydlər aparmasını xahiş elədi. Samir Həsənov gündəlikdəki məsələ barəsində bildirdi ki, xüsusilə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında ölkə regionlarının davamlı və tarazlı tərəqqisi çərçivəsində ötən illərdə Daşkəsən rayonunda bütün sahələr üzrə nəhəng layihələr icra olunmuş, çox geniş, irimiqyaslı tikinti, quruculuq, abadlıq, təmir-bərpa işləri aparılmışdır. Rayonumuzda neçə-neçə məktəblər, uşaq bağçaları, inzibati və sosial obyektlər tikilmiş, ucqar dağ kəndlərində körpülər inşa olunmuş, yollar çəkilib asfalt örtük salınmış, elektrik təchizatı tamamilə yenidən qurulmuş, qazlaşmanın səviyyəsi yüksəlmiş, Daşkəsən şəhərinin su təminatı sistemi yenidən qurulmaqla ekoloji cəhətdən təmiz içməli su ucqar dağ ətəyindən rayon mərkəzinə gətirilərək mənzillərə daimi su xətləri çəkilmiş, rayonun bütün çoxmərtəbəli yaşayış binalarının dam örtükləri metal lövhələrlə əvəzlənmiş, yeni iş yerləri yaradılmış, sosial və ekoloji tədbirlər keçirilmiş, bir sözlə, rayonumuzun siması müasirləşərək tamamilə dəyişmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində parlaq tarixi Zəfər qazanan və yeni inkişaf mərhələsinə qədəm qoyan ölkəmizdə həyata keçirilən dövlət siyasətinin uğurları, əldə olunmuş nailiyyətlər, habelə bu siyasətin prioritet istiqamətləri barədə rayon sakinlərinin məlumatlandırılmasının müstəsna əhəmiyyəti var. Çünki əldə olunan bütün uğurlar rayonumuzun bütün sahələrində təzahür edir.

Məlumdur ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev ölkəmizdə dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsinin vacibliyini vurğulamaqla müxtəlif sahələrdə mövcud olan problemlərin araşdırılmasında və onların həlli yollarına dair təkliflər hazırlanmasında vətəndaş cəmiyyəti təsisatlarının fəal iştirakı ilə bağlı müvafiq tapşırıq və tövsiyələr vermişdir. Bu məqamda qeyd edilməlidir ki, Daşkəsən rayonunun ərazisində həyata keçirilən tədbirlər barədə RİH tərəfindən vətəndaş cəmiyyəti institutları da cəlb edilməklə yerlərdə sakinlərlə mütəmadi olaraq hesabat xarakterli görüşlər keçirilir, izahatlar verilir, vətəndaşların rəy və təklifləri daim nəzərə alınır. Rayonda görülən işlər KİV və sosial media resurslarında operativ olaraq geniş işıqlandırılır. Təqdirəlayiq haldır ki, həyata keçirilən tədbirlərdə rayonun təsərrüfat subyektləri, ayrı-ayrı idarə, müəssisə və təşkilatları ilə yanaşı, hər zaman sakinlər də könüllü olaraq yaxından iştirak edirlər. Bütün bunlara baxmayaraq, İctimai Şuranın fəaliyyətində rayon ziyalıları və sakinlər ilə daha sıx təmasda olmaqla, ölkəmiz üçün aktuallıq kəsb edən məsələlər, habelə rayonda abadlıq-quruculuq, ekoloji maarifləndirmə və sosial-infrastruktur layihələrinin icrası ilə əlaqədar görülən işlər barədə vətəndaşları müntəzəm olaraq məlumatlandırmaq müxtəlif sahələrdə ortaya çıxan problemlərin araşdırılmasında və onların həlli yollarına dair təkliflərin hazırlanmasında, sağlam ictimai rəyin formalaşdırılmasında, o cümlədən ictimaiyyətdə çaşdırıcı fikirlərin qarşısının alınmasında olduqca faydalıdır və vacibdir.

**Çıxışlar:**

1. İctimai Şuranın sədr müavini Emin Əliyev çıxışında sağlam ictimai rəyə əsaslanan təkliflərin verilməsi işinə dəstək olaraq rayonda abadlıq-quruculuq, ekoloji maarifləndirmə və sosial-infrastruktur layihələrinin icrası ilə əlaqədar görülən işlər barədə sakinlərin müntəzəm olaraq məlumatlandırılması məqsədilə rayon ziyalılarını, şəhid ailələrini, ağsaqqalları, qazi və nüfuzlu ictimaiyyət nümayəndələrini də əməkdaşlığa cəlb etməklə əhali kütləsi, təhsilalanlar, gənclər, ictimai nüfuzlu şəxslərlə müvafiq iş aparmaq üçün qrafik tərtib etməyin vacibliyini qeyd etdi.

2. İctimai Şuranın üzvü Vüqar Xəliov isə çıxışında məlumatlandırma ilə bağlı qarşıya qoyulan hədəflərin cari fəaliyyət planında nəzərdə tutmalı olduğunu bildirdi.

Gündəlikdəki məsələ müzakirə edildikdən sonra səsə qoyuldu və yekdilliklə qəbul olundu.

**Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şura qərara alır:**

1. Daşkəsən rayonunda abadlıq-quruculuq, ekoloji maarifləndirmə və sosial-infrastruktur layihələrinin icrası ilə əlaqədar görülən işlər barədə sakinlərin müntəzəm olaraq məlumatlandırılması məqsədilə qrafik tərtib edilsin və bu barədə RİH-nə məlumat verilsin.

2. Məlumatlandırma işinə maraqlı tərəflərin cəlb edilməsi diqqətdə saxlansın.

**İclasın sədri:** **Samir Həsənov**

**İclasın katibi:** **Aygül Zeynalov**